İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

LİDERİN QƏTL GÜNÜ

NƏCİB MƏHFUZ

Ərəb dilindən tərcümə:

Prof. Əhməd Sami Elaydi

parlaq
İMZALAR

Baş redaktor:	Toğrul MUSAYEV
Redaktor:	Vaqif SULTANLI
Korrektor:	Turac ELDARQIZI
Tərtibatçı:	Zülfi XƏLİLOV
Cildin dizayneri:	Aygül ƏLİYEVA

نجيب محفوظ
يوم قتل الزعيم

Nəcib Məhfuz
LİDERİN QƏTL GÜNÜ

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 120 səh.

© The American University in Cairo Press (Auc Press) / 2026
© Parlaq İmzalar MMC / 2026

Kitab “The American University in Cairo Press (Auc Press)” ilə bağlanılmış müqavilə *(Introtema Literary Agency vasitəsilə)* əsasında nəşr edilmişdir. Azərbaycan dilində nəşr hüququ “Parlaq İmzalar” nəşriyyatına məxsusdur və bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 153

ISBN 9952547916-2

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: “AVE PRİNT” MMC
2026

Nəcib Məhfuz 1911-ci il dekabrın 11-də Qahirənin əl-Cəmaliyyə məhəlləsində anadan olub. 1934-cü ildə Qahirə Universitetinin Fəlsəfə fakültəsini bitirib. Gənc yaşlarından fəlsəfi məqalələr yazsa da, sonradan diqqətini tamamilə bədii nəsrə yönəldib.
Yaradıcılığının ilk dövründə tarixi romanlar yazan müəllif sonradan Misir cəmiyyətinin real mənzərəsini canlandıran əsərləri ilə şöhrət qazanıb. Onun 1950-ci illərdə işıq üzü görən məşhur "Qahirə trilogiyası" ərəb ədəbiyyatında realizmin zirvəsi hesab olunur.
1988-ci ildə Nəcib Məhfuz "ərəb hekayəçiliyinə gətirdiyi bəşəri çalarlara görə" Nobel ədəbiyyat mükafatına layiq görülən ilk ərəb yazıçısı kimi tarixə düşüb. O, əsərlərində Qahirənin küçələrini və adi insanların taleyini böyük ustalıqla təsvir edib.
Nəcib Məhfuz 2006-cı il avqustun 30-da Qahirədə vəfat edib.

Əhməd Sami Elaydi 1979-cu il aprelin 6-da Misir Ərəb Respublikasının Qahirə şəhərində anadan olub. 2006-cı ildə Qahirədəki Eyn əş-Şəms Universitetinin Ədəbiyyat fakültəsinin Türk dili və ədəbiyyatı bölümünü bitirib. Bir müddət təhsil aldığı universitetdə müəllim işləyib. Daha sonra Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasının doktoranturasını bitirib. Misir Ərəb Respublikasının Azərbaycandakı səfirliyinin mədəniyyət attaşesi, Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin direktoru vəzifəsində çalışıb.
Əhməd Sami Elaydi "Qaçaq Nəbi" dastanını, Kamal Abdullanın "Yarımçıq əlyazma", Vaqif Sultanlının "İnsan dənizi" romanlarını, "Müasir Azərbaycan hekayələri" antologiyasını ərəb dilinə çevirərək Qahirədə nəşr etdirib.

İnsan taleyinin böyük söz ustası

Nəcib Məhfuz 11 dekabr 1911-ci ildə Qahirənin qədim və tarixi məhəllələrindən biri – əl-Cəmaliyyədə dünyaya gəlmiş, 30 avqust 2006-cı ildə Qahirədə vəfat etmişdir. Uşaqlıq və gənclik illərini keçirdiyi qədim Qahirə məhəllələri sonralar onun yaradıcılığının əsas bədii məkanlarından birinə çevrilmişdir. Dar küçələr, köhnə evlər, kiçik dükanlar, kafelər, məscidlər, ailə həyatı və məhəllə münasibətləri Məhfuzun əsərlərində sadəcə hadisələrin cərəyan etdiyi fon deyil, qəhrəmanların xarakterinə və taleyinə təsir göstərən canlı bir dünyanın ayrılmaz hissəsidir.

Nəcib Məhfuz 1934-cü ildə Qahirə Universitetinin fəlsəfə fakültəsini bitirmişdir. Aldığı təhsil onun dünyagörüşünün və bədii təfəkkürünün formalaşmasında mühüm rol oynamışdır. İnsan taleyi, həyat və ölüm, azadlıq, iman və şübhə, ədalət, hakimiyyət və mənəvi seçim kimi məsələlər sonralar onun roman və hekayələrinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Uzun illər dövlət qulluğunda çalışması da yazıçıya Misir cəmiyyətinin gündəlik həyatını, dövlət idarələrinin mühitini, müxtəlif sosial təbəqələrin düşüncə və davranışlarını yaxından müşahidə etmək imkanı vermişdir. Bütün bunlar onun zəngin bədii dünyasının formalaşmasına öz təsirini göstərmişdir.

* * *

Yaradıcılığının ilk mərhələsində qədim Misir tarixinə müraciət edən yazıçı sonralar sosial realizmə yönəlmiş, Qa-

hirənin müxtəlif təbəqələrinin gündəlik həyatını, ailə münasibətlərini, yoxsulluğu, sosial bərabərsizliyi, siyasi dəyişiklikləri və insanın cəmiyyət daxilində apardığı mübarizəni geniş bədii planda təsvir etmişdir. Yaradıcılığının sonrakı mərhələlərində isə fəlsəfi və simvolik məzmun, daxili monoloq, şüur axını, çoxsəslilik və yığcam təhkiyə daha qabarıq şəkildə ön plana çıxmışdır.

Məhfuzun "Qahirə trilogiyası", "Midaq dalanı", "Başlanğıc və son", "Oğru və itlər", "Nil üzərində boşboğazlıq", "Miramar" və başqa əsərləri müasir ərəb nəsrinin klassik nümunələri sırasında yer alır. Onun bir çox əsərləri müxtəlif dillərə tərcümə edilmiş, roman və hekayələri əsasında çoxsaylı bədii və televiziya filmləri çəkilmişdir.

Məhfuz sənətinin ən mühüm xüsusiyyətlərindən biri son dərəcə konkret və yerli mühitdən ümumbəşəri məna yarada bilməsidir. Onun qəhrəmanları Qahirənin küçələrində yaşayır, Misir cəmiyyətinə xas sosial və siyasi problemlərlə qarşılaşırlar. Bununla belə, onların sevgisi və tənhalığı, ümidi və məyusluğu, qorxuları, arzuları və mənəvi tərəddüdləri müxtəlif xalqlardan olan oxucular üçün də doğma və anlaşıqlıdır.

* * *

Nəcib Məhfuzun dünya ədəbiyyatındakı mövqeyi 1988-ci ildə Nobel ədəbiyyat mükafatına layiq görülməsi ilə beynəlxalq səviyyədə bir daha təsdiq edildi. Bununla o bu mükafatı alan ilk ərəb yazıçısı kimi tarixə düşdü.

Bu hadisə təkcə bir yazıçının şəxsi uğuru deyildi. Məhfuzun Nobel mükafatına layiq görülməsi ərəb dilində yaranan ədəbiyyatın dünya miqyasında tanınması baxımından mühüm tarixi hadisəyə çevrildi. Bundan sonra həm onun yaradıcılığına, həm də bütövlükdə müasir ərəb ədəbiyyatına dünyanın müxtəlif ölkələrində maraq daha da artmış oldu.

Məhfuzun dünya şöhrətinin əsas səbəblərindən biri Şərq cəmiyyətinə xas problemləri yalnız yerli və regional çərçivədə deyil, ümumbəşəri insan problemləri səviyyəsində təqdim edə bilməsidir. Onun qəhrəmanları zamanın, cəmiyyətin, hakimiyyətin və öz daxili aləmlərinin təzyiqi altında daim seçim qarşısında qalırlar. Buna görə də Məhfuzun əsərləri konkret tarixi şəraitdən doğsa da, zaman və məkanın hüdudlarını aşaraq öz aktuallığını qoruyub saxlayır.

* * *

Oxuculara təqdim olunan "Liderin qətl günü" Nəcib Məhfuzun yetkin yaradıcılıq dövrünə aid, həcmcə yığcam, lakin məzmun və ideya baxımından olduqca tutumlu romanlarından biridir.

Əsərin bədii quruluşunun əsas xüsusiyyəti hadisələrin üç fərqli personajın baxış bucağından təqdim olunmasıdır. Romanın əsas qəhrəmanları baba Mühtəşimi Zayid, onun nəvəsi Ülvan Fəvvaz Mühtəşimi və Randa Süleyman Mübarəkdir. Təhkiyə bu üç personajın daxili monoloqlarının növbələşməsi üzərində qurulmuşdur.

Belə bir struktur yazıçıya eyni hadisəni müxtəlif yaş, həyat təcrübəsi və dünyagörüşü prizmasından göstərmək imkanı verir. Romanda hər şeyi bilən, hadisələri izah edən və oxucuya hazır nəticə təqdim edən ənənəvi təhkiyəçi yoxdur. Hər personaj dünyanı öz baxış bucağından görür; birinin diqqətindən yayınan məqamı digəri sezə bilir, bəzən isə hər biri öz hisslərinin və şəxsi təcrübəsinin təsiri altında hadisələri fərqli şəkildə dəyərləndirir.

Məhz bu polifoniklik romanın mühüm bədii xüsusiyyətlərindən biridir. Məhfuz oxucuya hazır hökm təqdim etmir; onu müxtəlif səsləri dinləməyə, bu səslər arasındakı fərqləri görməyə və nəticəni özü çıxarmağa sövq edir.

* * *

Mühtəşimi Zayid romanda sadəcə yaşlı baba obrazı deyil. O, eyni zamanda Misirin yaxın tarixinin canlı yaddaşıdır. Onun xatirələrində 1919-cu il inqilabı və milli azadlıq mübarizəsi, Səəd Zağlül dövrü, monarxiya illəri, 1952-ci il İyul inqilabı, Camal Əbdül Nasirin hakimiyyəti, 1967-ci ilin iyun məğlubiyyəti, 1973-cü il Oktyabr müharibəsi və Ənvər Sadat dövrünün siyasi dəyişiklikləri bir-birini izləyir.

Mühtəşiminin dünyagörüşündə dini və sufi düşüncə də mühüm yer tutur. Quran ayələri, hədislər, övliyalar, kəramətlər, ölüm və əbədiyyət haqqında düşüncələr onun daxili aləminin ayrılmaz hissəsidir. Bununla yanaşı, o, keçmişə yalnız nostalji ilə baxan bir qoca deyil. Mühtəşimi yaşadığı dövrü diqqətlə izləyir, siyasətə, cəmiyyətə və insanların dəyişən davranışlarına bəzən istehza, bəzən də olduqca sərt tənqidi münasibət göstərir.

Ülvan isə gənc nəslin yaşadığı böhranın təcəssümüdür. O, təhsil almış, işləyən, öz həyatını və gələcəyini qurmaq istəyən gəncdir. Lakin sosial və iqtisadi şərait onun arzularının qarşısında getdikcə daha ciddi maneələr yaradır. Bahalıq, mənzil problemi, korrupsiya, məhdud imkanlar və ailə qurmağın çətinliyi onun şəxsi həyatını birbaşa müəyyənləşdirən amillərə çevrilir.

Randa həmin sosial böhranın başqa bir tərəfini təmsil edir. O sevmək, ailə qurmaq, öz həyatını özü seçmək və ləyaqətini qorumaq istəyən müasir qadındır. Ancaq onun da şəxsi istəkləri pul, sosial mövqe, ailə münasibətləri və sürətlə dəyişən ictimai dəyərlərlə toqquşur.

Beləliklə, Ülvanla Randanın sevgi hekayəsi yalnız iki gəncin şəxsi münasibəti olmaqdan çıxır. Onların taleyi bir nəslin yaşadığı daha geniş sosial və mənəvi böhranın bədii ifadəsinə çevrilir.

* * *

"Liderin qətl günü" romanının tarixi fonu əsərin ideya və məzmununun anlaşılması üçün xüsusi əhəmiyyət daşıyır. Hadisələr əsasən Misirin sabiq prezidenti Ənvər Sadatın hakimiyyətinin son illərində cərəyan edir və 6 oktyabr 1981-ci ildə keçirilən hərbi parad zamanı onun qətlə yetirilməsi ilə kulminasiya nöqtəsinə çatır.

Ənvər Sadatın hakimiyyəti Misirin müasir tarixində ciddi siyasi, iqtisadi və sosial dəyişikliklərin baş verdiyi bir dövr idi. 1973-cü il Oktyabr müharibəsindən sonra ölkənin daxili və xarici siyasətində yeni istiqamətlər müəyyənləşməyə başladı. Sadatın həyata keçirdiyi "İnfitah", yəni iqtisadi açılım siyasəti bir tərəfdən yeni iqtisadi imkanlar yaratdı, digər tərəfdən isə cəmiyyətdə dərin sosial dəyişikliklərə yol açdı.

Yeni varlı təbəqələr meydana çıxdı, istehlak meyilləri gücləndi, sosial fərqlər daha aydın görünməyə başladı. Bahalıq, mənzil çatışmazlığı, rüşvət, korrupsiya və gənclərin ailə qurmaqda üzləşdiyi maddi çətinliklər gündəlik həyatın mühüm problemlərinə çevrildi.

Məhfuz bütün bunları tarixçi və ya iqtisadçı dili ilə şərh etmir, böyük siyasi və iqtisadi dəyişikliklərin adi insanların gündəlik həyatına necə nüfuz etdiyini göstərir. "İnfitah" Ülvan və Randa üçün abstrakt siyasi termin deyil. Onun nəticələri bu gənclərin evlənə bilməməsində, mənzil və gələcək qayğılarında, maddi sıxıntılarında və insan münasibətlərinin getdikcə daha çox pulun təsiri altına düşməsində üzə çıxır. Məhz bu amil əsərə yalnız bədii deyil, həm də mühüm tarixi-sosial dəyər qazandırır.

* * *

Romanın adı – "Liderin qətl günü" – ilk baxışda əsərin əsas mövzusunun Ənvər Sadatın öldürülməsi olduğu təəs-

süratını yarada bilər. Əslində isə, bu hadisə romanın siyasi kulminasiya nöqtəsidir və əsərin mənası yalnız həmin qətllə məhdudlaşmır.

Liderin ölümü Məhfuzun bədii dünyasında daha geniş məna qazanır. Hakimiyyətin zirvəsində dayanan, güclü və toxunulmaz görünən bir insanın bir anda tarix səhnəsindən silinməsi bütün hakimiyyət və qüdrətin ölüm qarşısında nə qədər nisbi olduğunu göstərir.

Bu fikir roman boyunca, xüsusilə də Mühtəşimi Zayidin ölüm və əbədiyyət haqqında düşüncələrində tədricən hazırlanır. Əsərin sonunda fərdi ölüm haqqında fəlsəfi düşüncə ilə siyasi səhnədə baş verən ölüm hadisəsi eyni məna müstəvisində qovuşur.

Məhfuz böyük tarixi hadisəni adi insanların taleyi ilə ustalıqla əlaqələndirir. Prezident öldürülür, ölkənin siyasi həyatında yeni mərhələ başlayır, ancaq Ülvan, Randa və onların ətrafındakı insanlar öz sevgiləri, qorxuları, qəzəbləri, ümid və ümidsizlikləri ilə yaşamaqda davam edirlər. Beləcə, romanda tarixlə şəxsi həyat bir-birindən ayrılmaz bir bütövə çevrilir.

* * *

Romanın təhkiyəsi də əsərin özünəməxsusluğunu müəyyən edən əsas cəhətlərdəndir. Məhfuz uzun təsvirlərdən daha çox yığcam cümlələrə, daxili monoloqa, çevik dialoqlara və assosiativ keçidlərə üstünlük verir.

Bəzən bir neçə qısa cümlə daxilində şəxsi xatirə, siyasi hadisə, dini düşüncə, istehzalı müşahidə və fəlsəfi nəticə bir-birinə qarışır. Bu xüsusiyyət özünü xüsusilə Mühtəşimi Zayidin monoloqlarında aydın göstərir.

Əsərin dili ilk baxışda sadə və yığcam təsir bağışlasa da, mətnin arxasında zəngin tarixi, dini və mədəni qat dayanır.

Misirin siyasi tarixini, dini-sufi ənənəsini və xalq mədəniyyətini bilmədən bəzi ifadələrin və işarələrin bütün məna çalarlarını duymaq çətin ola bilər.

Buna görə də bu romanın başqa bir dilə tərcüməsi yalnız ayrı-ayrı söz və ifadələrin qarşılığını tapmaqdan ibarət deyil. Tərcüməçi eyni zamanda həmin sözlərin arxasında dayanan tarixi yaddaşı, mədəni kodları, dini çalarları və siyasi istehzanı da tərcümə olunan dilin oxucusuna çatdırmalıdır.

* * *

Azərbaycan oxucusu bu romanda yalnız Misir tarixinin müəyyən bir dövrü ilə tanış olmayacaq. Əsərdə nəsillər arasındakı fərq, keçmişlə yeni zamanın qarşıdurması, sosial dəyişikliklərin insan münasibətlərinə təsiri, maddi çətinliklərin şəxsi arzular qarşısında yaratdığı maneələr, cəmiyyətin sürətli dəyişikliklər fonunda yaşadığı mənəvi sarsıntılar kimi ümumbəşəri məsələlər də mühüm yer tutur.

Bu baxımdan "Liderin qətl günü" yalnız Misir cəmiyyətindən bəhs edən bir əsər deyil; fərqli tarixi və sosial təcrübələr yaşamış xalqların oxucuları ilə də mənalı dialoq qura bilən romandır.

Roman üzərində işləyərkən Nəcib Məhfuzun mətninə, onun bədii üslubuna və fikir dünyasına sədaqəti qorumaqla yanaşı, əsərin Azərbaycan dilində təbii və canlı səslənməsinə çalışmışam.

Romanda Misirin müasir tarixi ilə bağlı hadisələrə, dini və sufi anlayışlara, Quran ayələri və hədislərə, tarixi şəxsiyyətlərə, siyasi hadisələrə, eləcə də Misir xalqının məişət və mədəniyyətinə aid çoxsaylı işarə və ifadələrə rast gəlinir. Azərbaycan oxucusunun bu məqamları daha dolğun anlaması üçün zəruri hallarda tərcüməçi qeydlərindən istifadə edilmişdir.

Bu qeydlərin məqsədi bədii mətnə müdaxilə etmək və ya müəllifin söyləmədiyini onun əvəzinə izah etmək deyil. Məqsəd əsərin ərəb oxucusu üçün təbii və aydın olan, lakin Azərbaycan oxucusunun əlavə tarixi və mədəni məlumata ehtiyac duya biləcəyi məqamlarını qısa şəkildə aydınlaşdırmaqdır.

Tərcümə zamanı personajların fərdi danışıq və düşüncə tərzinin qorunmasına da xüsusi diqqət yetirilmişdir. Mühtəşimi Zayidin dini-fəlsəfi düşüncə ilə istehzanı birləşdirən dili, Ülvanın gənclik ehtirası və daxili gərginliyi, Randanın həssas, lakin eyni zamanda rasional düşüncə tərzi eyni üslubda səslənə bilməzdi. Romanın çoxsəsli bədii quruluşu məhz bu fərqli səslərin qorunmasına əsaslanır.

* * *

"Liderin qətl günü" yalnız bir prezidentin öldürülməsindən bəhs edən roman deyil. Bu, bir dövrün sona çatmasının, dəyərlərin dəyişməsinin, nəsillər arasındakı məsafənin artmasının və insanın böyük tarixi hadisələrin içində öz şəxsi xoşbəxtliyini qorumaq cəhdinin romanıdır.

Burada sevgi ilə siyasət, ölüm ilə həyat eşqi, iman ilə şübhə, keçmişə bağlılıq ilə gələcəyə ümid yanaşı mövcuddur. Məhz bu ziddiyyətlərin bədii vəhdəti Nəcib Məhfuz yaradıcılığının əsas güc mənbələrindən biridir.

Bu tərcümənin ərəb və Azərbaycan ədəbiyyatları arasında qarşılıqlı tanışlığın genişlənməsinə, iki xalqın ədəbi-mədəni dünyaları arasında yeni əlaqələrin yaranmasına kiçik də olsa töhfə verəcəyinə ümid edirəm.

Prof. Əhməd Sami Elaydi

Mühtəşimi Zayid

Qısa bir yuxu və qalın yorğanın altında istidən məst olmuş bir intizar. Pəncərədən xəfif bir işıq süzülür, lakin otağın zülmət qaranlığında bu zəif işıq bütün qüvvəsi ilə üzə çıxır.

...Allahım, Sənin izninlə yatıb, Sənin izninlə dururam. Hər şeyin sahibi Sənsən. Budur, yeni günümü açan sübh azanı hər yanı bürümüş sükut dənizində Sənin adını səsləyir. Allahım, yatağın nəvazişindən ayrılıb bu uzun qışın sərt soyuğuna çıxmaq üçün mənə yardım et. Əzizim o biri yataqda dərin yuxudadır. Onu oyatmaq üçün bu qaranlıqda gərək yanına gedim. Dəstəmaz suyu nə qədər də soyuqdur! Lakin Sənin mərhəmətindən hərarət alıram. Namaz Sənə qovuşmaq və Səndə yox olmaq deməkdir. Kim Allaha qovuşmağı arzu edərsə, Allah da onu sevər. Məni Allaha yaxınlaşdıracaq bir bilgi əldə etmədiyim gün qoy mənə haram olsun. Nəhayət, yatanları oyatmaq üçün özümü düşüncələrimdən ayırıram. Bu zəhmətkeş ailənin zəngli saatı mənəm. Buna da şükür! Bu yaşda faydalı olmaq özü də bir işdir. Yaşlı olduğuma baxmayaraq, Allahın köməyi ilə hələ də səhhətim yerindədir.

İndi lampanı yandırmağın eybi yoxdur. Oğlumun: "Sabahın xeyir, atam", – deyə səsini eşidincəyədək otağın qapısını taqqıldadaraq: "Fəvvaz", – deyə səslənirəm. Otağıma qayıdaraq oranın da işığını yandırıram və görürəm ki, yorğanla papağı arasından üzünün ancaq bir hissəsi görünən nəvəm dərin yuxuya gedib. Onu dünya rahatlığından cəhənnəmə çıxarmaqdan başqa çarəm olmadığından şəfqət dolu bir ahənglə səslənməliyəm: "Ülvan... ayıl...". Ülvan ayılıb qəhvəyi gözlərini açaraq əsnəyir və gülümsəyərək: "Sabahın xeyir, baba", – deyir. Bundan sonra ayaq səsləri, dillərin canlanması və vanna otağı ilə yemək otağı arasında hərəkətə gələn həyat başlayır. Gəlinim Hana: "Süfrə hazırdır, əmi", – deyə məni çağıranadək radioda Qurani-Kərimi dinləyirəm. Dünya nemətləri içində mənə qalan ən mühüm şey yeməkdir. Bu dünyada Allahın nemətlərinin sayı-hesabı yoxdur. Allahım, xəstəlik və acizliyi məndən uzaq et. Burada hər kəsin öz dərdi var. Heç kimin müalicəyə sərf ediləsi artıq pulu yoxdur. Burada xəstələnənin vay halına. Səhər bizi süfrə arxasına təkcə ful mudamməs və təamiyyə[1] toplayır. Onlar – ful mudamməs və təamiyyə bizim üçün Süveyş kanalından da önəmlidir. Süfrələrimizdən yumurta, pendir, kolbasa və mürəbbənin əskik olmadığı vaxtlar da var idi. O dövr artıq keçmişdə qalıb – yaxud "İ. Ə.", yəni

1. Ful mudamməs və təamiyyə – Misir mətbəxində geniş yayılmış ənənəvi yeməklərdir. Ful mudamməs bişmiş paxladan, təamiyyə isə əsasən üyüdülmüş paxladan hazırlanır. – Tərc.

“İnfitahdan əvvəl”.[1] Qiymətlər çıxıb kəllə-çarxa. Hər şey bahalaşıb. Fəvvazın bədəni hələ də kökəlməyə meyilli olduğu halda o, yaman çox çörək yeyir. Hana da onun kimidir, lakin o, vaxtından əvvəl yaşlanmağa doğru gedir. Bu gün əlli yaşlı adam altmış yaşlı kimi görsənir. Fəvvaz gur səsi ilə dedi:

– Nazirlikdə bir neçə gün səhər-axşam işləyəcəyik, buna görə şirkətdəki işimə ara verməli olacağam...

İçimdə bir narahatlıq yarandı. Oğlum Fəvvaz və gəlinim Hana özəl şirkətdə işləyirlər. Onların maaşı, mənim təqaüdüm və Ülvanın aldığı əməkhaqqı həyat tələblərini çətinliklə ödədiyi halda, bu yandan da şirkət onu işdən azad etsə, vəziyyətimiz necə olacaq?!

Ümidlə dedim:

– Bəlkə, cəmi bir neçə gün çəkər.

Hana dedi:

– Sənin işlərinin bir hissəsini yekunlaşdıra bilməyəcəyimdən onları evə gətirəcəm və şöbə müdirinə də vəziyyətini açıqlayacam.

Fəvvaz qəzəbli halda dedi:

– Yəni belə çıxır ki, mən səhər tezdən gecəyarısınadək işləyəcəm.

Süfrə arxasında problemlərimiz haqqında danışmaqdan heç vaxt xoşum gəlməyib. Ancaq nə etməli?

---

1. İnfitah – Misirdə prezident Ənvər Sadat dövründə, xüsusilə 1970-ci illərdən etibarən həyata keçirilən iqtisadi açılım və liberallaşma siyasətinə verilən addır. Müəllif mətndə “infitahdan əvvəl” ifadəsini “İ. Ə.” şəklində qısaldaraq, “miladdan əvvəl” ifadəsinin qısaltmasına bənzər istehzalı bir söz oyunu yaratmışdır. – Tərc.